# TURİZM SAHƏSİNİN İNFORMASİYA TƏMİNATINDA "EKSKURSİYA" ANLAYIŞI

**Hacı Qasımlı**

*BDU, Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının doktorantı*

Bildiyimiz kimi, turizm məlumatla zəngin bir fəaliyyət sahəsidir. Turizm ölkənin iqtisadiyyatının əsas infrasturukturundan biri kimi onun səmərəli təşkili və bu sahədə fəaliyyətin genişləndirilməsi bilavasitə ölkənin turizm fəaliyyətinin kitabxana-informasiya təminatından asılıdır. Turizm sahəsinə dair sənəd-informasiya resurslarından səmərəli istifadə turizm obyketləri arasında informasiya mübadiləsi ilə müşayiət olunur. Hazırda turizmin rəqabət üstünlükləri məlumat sahəsində daha çox formalaşır. Kitabxana-informasiya təminatı turizmdə rəqabət qabiliyyətinin artması üçün müasir innovativ bir qaynaqdır. Turizm fəaliyyətlərinin bütün səviyyələrində yeni rəqabət üstünlükləri yaratmağa imkan verir. Turizm sahəsinə dair sənəd-informasiya kütləsinin statistik məlumatların toplanmasının harmonizasiyası, dövlətlər arasında turizm informasiya mübadiləsinin həyata keçirilməsi, turizmin hərtərəfli təhlilinə yardım edilməsi yolu ilə regionun sosial-iqtisadi inkişaf vasitəsi kimi turizmin rolunun tanınmasının inkişaf etdirilməsi gələcəkdə bu sahə üzrə araşdırılacaq əsas məsələlərdəndir.

Bu sahə üzrə apardığımız təhlillər əsasında qeyd edə bilərik ki, ekskursiyalar keçirilmə formasına görə tematik və icmal ekskursiyalara ayrılır. Tematik ekskursiyalar informasiyanı əks etdirmə xarakterinə görə: tarixi, istehsalat və iqtisadiyyat, təbiətşünaslıq, ədəbiyyat və memarlıq-şəhərsalma tipli ekskursiyalara bölünür (Bax: şəkil-1).



**Şəkil-1**

İcmal ekskursiyalar isə çoxplanlı ekskursiya da adlandırılır. Çünki turizm sahələrində bu ekskursiyada həm tarixi, həm də müasir informasiya resurslarından istifadə edilir. Çoxplanlı icmal ekskursiyanın tərtibi və təşkili nisbətən mürəkkəbdir. Bu tip ekskursiya turistlər üçün daha çox maraq kəsb edir, çünki qısa müddət ərzində şəhərin tarixi və müasir vəziyyəti ilə tanış olur. Tematik və icmal ekskursiyaların tərtibi zamanı əsas meyar nümayişetdirmədir. Burada turistik obyektin nümayişi əsas götürülür. Obyektin nümayişi isə özündə dörd əsas komponenti əks etdirir (Bax:şəkil-2).




**Şəkil-2**

Şəkildən göründüyü kimi, şəhərkənarı ekskursiya zamanı obyektlərin nümayişi-onların bir yaşayış məntəqəsindən digərinə gedərkən 50-60 km/saat sürətlə hərəkət edən avtobusun pəncərəsindən müşahidəsi; Şəhərdaxili ekskursiya zamanı obyektlərin nümayişi-aşağı sürətlə (20-30 km/saat) hərəkət edən avtobusun pəncərəsindən həmin obyektlərin müşahidəsi; Avtobusun marşurut dayanacağında obyektlərin pəncərədən nümayişi; Obyektlərin bilavasitə müşahidəsi üçün ekskursantları avtobusdan düşməsi ilə müşaiət olunan nümayişi.

Beləliklə tezisdə şərh olunan ekskursiya anlayışı və onun əsas hissəsi olan tematik və icmal ekskursiyalar turizm sahəsində regionların tanıdılmasında əsas faktorlardan birini təşkil edir. Bu da turizmə dair yeni informasiya təminatının yaradılmasına və təkmilləşdirilməsinə öz müsbət təsirini göstərməkdədir.